# Azərbaycanşünaslıq Mərkəzinin açılışı olub

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) dəstəyi ilə Varşava Universitetində yaradılmış Azərbaycanşünaslıq Mərkəzinin açılış mərasimi keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov mərkəzin yaradılmasının önəmini vurğulayıb. Səfir ölkələrimiz arasında əlaqələrin hərtərəfli inkişafının məmnunluq doğurduğunu bildirib, bu münasibətlərin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Tədbirdə, həmçinin Varşava Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı Poitr Taraxa və Türkologiya və Orta Asiya xalqları kafedrasının rəhbəri Aqata Bareya çıxış ediblər. Qeyd olunub ki, 2013-cü ildən etibarən Varşava Universitetində AIDA-nın dəstəyi ilə həyata keçirilən Azərbaycan dili və mədəniyyətinin tədrisi uğurlu nəticələr verir. Azərbaycanşünaslıq Mərkəzinin yaradılması bu uğurların bariz nümunəsidir.

Azərbaycan dili və mədəniyyəti tədris proqramının rəhbəri Şəhla Kazımova, AMEA Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov və AIDA-nın direktor müavini xanım Aliyə Ağazadə də açılış mərasimində çıxış ediblər.

Azərbaycan.- 2018.-1 dekabr.- S.5.